# Mingəçevir:
# Nur şəhərinin uğurları

***2015-ci il Mingəçevir şəhərinin həyatında unudulmaz günlərlə yadda qalıb. Fevral ayının 24-də ölkə Prezidenti cənab İlham Əliyevin buraya səfərini hər bir mingəçevirli minnətdarlıq hissi ilə xatırlayır. Həmin səfər müddətində dövlət başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, daha sonra məcburi köçkünlər üçün inşa edilmiş və birinci Avropa Oyunları zamanı idmancıların yerləşəcəyi şəhərciklə tanış oldu.***

Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən 120 yerlik körpələr evi-uşaq bağçasının açılışında iştirak etdi, əsaslı təmir olunan və müasir tibbi avadanlıqlarla təchiz edilmiş şəhər mərkəzi xəstəxanasında görülən işlərlə tanış oldu. Heydər Əliyev parkında aparılan yenidənqurma işləri ilə tanışlıqdan sonra, dövlət başçısı yeni tikilən “Ağsaray”otel kompleksində işlərin gedişatı ilə maraqlandı, tövsiyələrini verdi. Bir sözlə, bu unudulmaz görüş yaddaşlara bax, beləcə köçdü.





2015-ci ildə Mingəçevir şəhərinin sosial-iqtisadi inkişafı və 2016- ildə qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda çıxış edən şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov görülən işlərdən həvəslə danışdı. Bildirdi ki, 2015-ci ilin təhlili göstərir ki, il ərzində şəhərin sənaye müəssisələrində 264,7 milyon manatlıq məhsul istehsal olunub və əvvəlki ilə nisbətən sənaye məhsulu istehsalı 17,3 faiz artıb. Hesabat dövründə əsas kapitala 131,4 milyon manat investisiya yönəldilib, 115,4 milyon manatlıq tikinti-quraşdırma işləri görülüb, nəqliyyat və rabitə sahələrində 5,3 milyon manatlıq xidmət göstərilib, əhaliyə 81,5 milyon manatlıq istehlak malları satılıb.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda Mingəçevir şəhərinə aid bəndlər 2015-ci il ərzində uğurla icra olunub. Şəhərdə aparılan abadlıq, quruculuq və yenidənqurma işləri daha da geniş miqyas alıb.

Belə ki, il ərzində 49 hündürmərtəbəli binanın 56 min kvadratmetr dam örtüyü əsaslı təmir olunub, 22 yaşayış binasında 62 min kvadratmetr fasad hissə rənglənib, binaların bünövrə hissəsinə 4 min kvadratmetr aqlay üzlük çəkilib.

Heydər Əliyev prospektinə, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev və Samux küçələrinə, çimərlik yoluna, ondan çox məhəllədaxili əraziyə, ümumilikdə isə 378 min kvadratmetr asfalt örtük salınıb, piyada səkilərinə 42 min kvadratmetr asfalt vurulub.

2015-ci il ərzində Heydər Əliyev parkı, Füzuli parkı və Teatr meydanı əsaslı yenidən qurulub, bu ərazilərə 26,8 min kvadrat metr beton, 14,5 min kvadratmetr rəngli tava vurulub, 13,4 min metr səki daşı quraşdırılıb. Yaşıllıq sahələrinə 10 min kvadratmetr qazon salınıb, 5 mindən çox dekorativ gül kollu, 9 minə yaxın dekorativ və müxtəlif növ ağac əkilib. Abadlaşdırılan ərazilərdə 3 ədəd yeni fəvvarə quraşdırılıb, fəaliyyətsiz olan 2 fəvvarə əsaslı təmir olunub. Sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün 2 ədəd uşaq əyləncə və trenajor kompleksi, bir mini futbol meydançası salınıb, 150 ədəd müasir oturacaq qoyulub, 700-dən çox müasir işıq dirəkləri quraşdırılıb.

Şəhər ərasizində uzun illər istifadəsiz olan yeganə yeraltı keçid əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilib. Mənzil kommunal idarələrinə il ərzində 13 adda müasir texnika alınıb.

Natiq bildirdi ki, Mingəçevirdə məskunlaşmış köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün 9 mərtəbəli 11 bina inşa edilib və əsasən, bağça və məktəblərdə məskunlaşan 594 ailə mənzillə təmin olunub.

İlin yekunu üzrə 4 saylı tam orta məktəb və 12 saylı körpələr evi-uşaq bağçası əsaslı təmir olunaraq istismara verilib, 1,7 və 9 saylı tam orta məktəblərdə isə əsaslı təmir işləri davam etdirilib.

Şəhər icra hakimiyyətinin başçısı qeyd etdi ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə “Mingəçevir-Toxucu”ASC-nin bazasında 14,8 hektar sahədə Mingəçevir Sənaye Parkının salınması nəzərdə tutulmuş və ərazidə sürətlə söküntü işləri aparılır. Sərəncama əsasən “Kür” Elektron Avadanlıqları Zavodunun bazasında 1,3 hektar ərazidə yüksək texnologiyalar parkının yaradılması istiqamətində də işlərə başlanılıb.

Hesabat ilində Dövlət Proqramına uyğun olaraq şəhər əhalisinin elektrik enerjisi və qazla təminatının yaxşılaşdırılması, istilik sisteminin bərpası, su və kanalizasiya xətlərinin yenidən qurulması işləri ardıcıllıqla davam etdirilib.

Şəhər Paylayıcı Elektrik Şəbəkəsi tərəfindən il ərzində 17 ədəd yeni transformator, 16 ədəd ayrıcı quraşdırılıb, 150 metr SİP kabel çəkilib, 600 metr zədəli naqil, 470 metr zədəli kabel dəyişdirilib, 67 ədəd yeni beton dayaq basdırılıb.

Qaz istismar xidməti tərəfindən 43 ədəd yeni şkaf tipli qaztənzimləyici məntəqəsi quraşdırılıb. 19 ədəd siyirtmə dəyişdirilib, 4,5 kilometr qaz xətti çəkilib, 3 mindən çox qaz sayğacı yenilənib.

Məruzəçi vurğuladı ki, 2015-ci ildə şəhərin sənaye müəssisələrinin fəaliyyətində 17,3 faizlik artım müşahidə olunub. İl ərzində istehsal olunmuş sənaye məhsulunun 95 faizi elektrik enerjisi istehsal edən iki müəssisənin payına düşüb. Şəhərin ən iri istehsal müəssisəsi olan “Azərbaycan İstilik Elektrik Stansiyası” MMC-də il ərzində 7,4 milyard kilovatsaat elektrik enerjisi istehsal olunub, müəssisədə 1229 nəfər işçi çalışıb, onların orta aylıq əmək haqqı 436 manat təşkil edib.

“Mingəçevir SES silsiləsi” MMC-də hesabat ilində 451 milyon kilovatsaat elektrik enerjisi istehsal edilib və əvvəlki illə müqayisədə istehsalın həcmi 29 faiz artıb. Müəssisədə çalışan 130 nəfər işçinin orta aylıq əmək haqqı 345 manat təşkil edib.

Keçən il ərzində şəhərin digər sənaye müəssisələri –“Mingəçevir İzolit", “Azneftmaş”, “Regenerat”, “Mingəçevir Texniki Rezin”ASC-lər, “Akkord” Mingəçevir maşınqayırma zavodu da müəyyən uğurlar qazanıb.

Daha sonra məruzəçi təhsil və səhiyyə sahəsində qazanılmış uğurlardan danışdı. Bildirdi ki, keçən il 394 nəfər qəbul imtahanlarını müvəffəqiyyətlə verərək tələbə adına layiq görülüblər.

Şəhər üzrə fənn olimpiadasının şəhər mərhələsinin qalibi olan və zona mərhələsində iştirak edən 64 nəfərdən 18-i respublika mərhələsinə vəsiqə qazanıb, onlardan 11 nəfəri mükafata layiq yerlər tutub, 7 nəfər məktəbi qızıl medalla başa vurub, ali məktəblərə qəbul olanların 1 nəfəri Prezident təqaüdünə layiq görülüb.

Texniki Humanitar Lisey, 7 və 10 nömrəli tam orta məktəblər “İlin ən yaxşı ümumtəhsil məktəbi”, Təbiət Riaziyyat və Humanitar Elmlər Təma - yüllü Liseyin ingilis dili müəllimi Mələknisə İsmayılova və Texniki Humanitar Liseyin riyaziyyat müəllimi Arzu Hüseynova “İlin ən yaxşı müəllimi” müsabiqəsinin qalibi olublar.

Hesabat dövründə özündə 10 tibb müəssisəsini birləşdirən şəhər mərkəzi xəstəxanasının şöbə və bölmələrində 70 min manatlıq cari təmir işləri aparılıb, yeni inventarlar, tibbi avadanlıq və laborator ləvazimatları alınıb.

Kadrların peşəkarlıq səviyyəsini yüksəltmək məqsədilə həkimlər, orta tibb işçiləri Səhiyyə Nazirliyinin təşkil etdiyi bütün seminar və təlimlərdə iştirak edib, 123 həkim və 239 orta tibb işçisi müxtəlif ixtisasartırma kurslarında olub.

Hesabat dövründə mədəniyyət müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni inventarlarla təchizi, binaların təmiri, kitabxana və muzey fondlarının komplektləşdirilməsi üzrə müəyyən işlər görülüb. Şəhər mədəniyyət və turizm şöbəsi tərəfindən mədəniyyət müəssisələrinə inventar və avadanlıq alınıb. Rəsm Qalereyasında 35,4 min manatlıq əsaslı təmir işləri aparılıb.

2015-ci ildə şəhər tarix muzeyi yeni binaya köçürülüb, uşaq incəsənət məktəbi əsaslı təmir olunub. 2015-ci ildə Mingəçevir Dövlət Dram teatrında 8 yeni tamaşa qoyulub, müxtəlif mövzularda ədəbi- bədii kompozisiyalar hazırlanıb.

Çıxışında gənclər və idman sahələrində uğurları xüsusi vurğulayan Niyazi Bayramov bildirdi ki, gənclərin şəhərin ictimai-siyasi, mədəni, sosial-iqtisadi sahələrində yaxından iştirakının təmin edilməsi, onların fiziki sağlamlıqlarına diqqətin artırılması, perspektivli idmançıların peşəkarlığının yüksəldilməsi, kütləvi tədbirlərin keçirilməsi, asudə vaxtının təşkili və yüksək vətənpərvərlik ruhunda tərbiyəsinə yönələn tədbirlər hazırlanıb həyata keçirilib.

Gənc nəslin intellektual səviyyəsinin inkişafı məqsədilə “Breyn-Rinq”, “Nə? Harada? Nə zaman?”, “Xəmsə” intellektual oyunları üzrə yarışlar təşkil olunub. 2015-ci ildə ölkəmizdə keçirilən I Avropa Oyunlarında Təşkilat Komitəsi ilə birgə 500 nəfər könüllünün iştirakı təmin olunub.

İl ərzində boks, cüdo, yunan-Roma güləşi, akademik avarçəkmə, futbol üzrə respublika birinciliklərində idmançılarımız 52 medal qazanıb ki, onlardan 14-ü qızıl, 21-i gümüş, 17-si isə bürüncdür.

Bir sözlə, Mingəçevir 2015-ci ili uğurla başa vurub. Niyə uzağa gedirik. Keçən il birinci Avropa Oyunları çərçivəsində avarçəkmə oyunlarının Mingəçevirdə keçirilməsi nur şəhərini bütün dünyaya tanıdıb. Məruzə ətrafında çıxış edən digər natiqlər də bu barədə ağız dolusu danışdılar. Bildirdilər ki, hələ daha böyük uğurlara imza atılacaq.

Yığıncaqda Prezident Administrasiyasının məsul işçisi Vəfadar Bağırov çıxış etdi.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin***
***bölgə müxbiri***